layırlar. Bu üzdən qısqanclıq yaranıb, vəssalam.

*Belə bir anormal proses xeyli vaxtdır başlanıb. Televiziya efirlərindən icazəsiz-filansız evlərə daxil olub, ailələrin həyat tərzinə "müdaxilə edən" aparıcılır, yarı zəif savadlı olmalarından, yarı da həmin tendensiyanın axınına düşüb özlərini çoxbilmiş göstərmək istədiklərindən dilimizi bərbad günə qoymaqdadırlar.*

*Hədəf kimi bir neçə hərfimiz götürülüb. Elmi isbatını açıqlamadan həmin hərfləri sıradan çıxarırlar, guya ki, dili asanlaşdırır, tələffüz qaydalarına yaxınlaşdırırlar. Bu sahədə həm də elektron texniki vasitələrin imkanlarını əsas gətirirlər. Hədəfdə birinci "Ə" hərfidir. On minlərlə kompyuter, noutbuk işlədən insan hələ də proqramda Azərbaycan əlifbasının mövcudluğunu bilmir. "Ə" hərfinin yerinə "E" yazırlar. Dilçi alimlərimiz "Ə" hərfinin haradan yarandığını ortaya qoyub müdafiə etməkdə acizdirlər. Çünki komissiyanın başında AMEA-nın rəhbəri İsa Həbibbəyli durur və kiminsə çıxışını özünə qarşı çıxmış hesab edər və nəticədə həmin alim işini itirmiş olar. Bax, bu cür düşüncəylə GƏLƏCƏYƏ GEDİRİK!*

*Boğazımızda "Ə" səsi var. Hərf də səsdən yaranır. Dilimizdəki hərfi yox etməyə siyasi iradəniz, gücünüz çatacaq. Bəs boğazımızdakı səsi də BOĞA BİLƏCƏKSİNİZMİ?*

*"Q" hərfini "K" hərfi ilə əvəzləməklə nə qazanacaqsınız? Biz "ALLAH QORUSUN" deyirik, "KORUSUN" yox! Biz yetmiş il Rusiya tabeliyində olduq, "Ə"yimizi də, "Q"yımızı da, digər hərflərimizi də qoruyub saxladıq. İndi müstəqilliyimizin 27-ci ilində niyə deformasiya uğramasına imkan verək?!*

***

*Qarşımıza məqsəd olaraq qoymasaq da jurnalda çap olunan nəsr əsərlərinin böyük əksəriyyəti müharibə mövzusundadır. İlahi, bu millətin nə qədər ağrıacısı varmış! Ermənilərin qırğın törədərək dava başlaması, sanki dünən idi, çünki o günlər xatırlanan kimi qaysaqlanmamış yaraların gözü göynəyir. Həm də həmin il anadan olan uşaqların indi otuz yaşı var... Dünənə bir bax!...*

*Otuz ilin yükünü daşıyan hekayələr "Xəzan"a güc verdi... Güc verdi ki, ZAMANIN BU AĞIR YÜKÜNÜ GƏLƏCƏYƏ birgə APARA BİLSİNlər. Bu yük, həm də millətin övladlarının belindədir, istər ölkədə çaksinlər, istərsə də bir tikə çörəkdən ötrü tərki-vətən olub MÜHACİRATda yaşasınlar...*

***

*Ağrılı-acılı görünsə də bu proseslər "XƏZAN" jurnalının iki yaşının tamam olması ərəfəsində baş verir. Dilimizin təmizliyinə ciddi-cəhdlə əməl etdiyimiz bir dövrdə belə bir əndrabandi münasibət ortaya çıxır. Təsəvvür edin ki, on illərlə orfoqrafik səhvlərlə çap olunan kitablar indiki deformasiyadan sonra düzgün hesab olunacaq. Bəlkə elə həmin orfoqrafik səhvlərlə kitab çap elətdirənlər hansı yollarlasa yuxarı eşalona dırmaşıb çıxa biliblər?!*

*Jurnalın nəşri ilə bağlı hər hansı bir giley-güzara ehtiyac yoxdur. İki yaşlı jurnalın uğurları, ya da qüsur və nöqsanları nə qədər olmalıdırsa, deyəsən, elə o qədərdir.*

*2017-ci il ərzində jurnal davamlı olaraq nəşr olunmuş, hər iki aydan bir çıxmaqla müntəzəmliyi davam etdirmiş, cəmi 6 nömrə (2016-cı ildə də 6 olmaqla, cəmi 12 nömrə) ərsəyə gətirmişdir. 130-dan (2016-cı ildə 120-dən) çox adamın qələm məhsulları jurnalda yer almışdır ki, onlardan da 43 nəfərin (ötən il 34 nəfərin) yazıları nəsr (bir povest, 31 nəfərin 57 hekayəsi, 6 nəfərin 11 essesi, bir nəfərin nağılı, bir nəfərin təmsili və 3 nəfərin 3 novellası) əsərləridir. Poeziya sahəsində şairlər daha çox üstünlüyə malik olmuşlar, 67 şairin (2016-cı ildə 69 nəfərin) beş yüzdən çox şeiri (3 nəfərin 3 poeması) jurnalda dərc edilmişdir. 26 qələm sahibinin (ötən il 23 nəfərin) müxtəlif səpkili publisistik yazıları jurnalda yer almışdır ki, onların da əksəriyyəti ədəbi proseslərlə bağlıdır.*

*Demək olar ki, qarşımıza qoyduğumuz məqsəd istiqamətində irəliləməkdə yolumuza davam edirik. Hər kəsə şərait yaradırıq ki, sərbəst şəkildə öz əsərlərini dərc etdirə bilsin. Kimin əsərinin daha yaxşı, kimin əsərinin nisbətən zəif olduğu məsələsinin müzakirəsi plana daxil deyildir. Onsuz da hamının yazdığı bütün əsərlər ədəbi inci hesab edilə bilməz.*

*İstənilən halda "XƏZAN" ədəbi-bədii jurnalı ciddi ədəbi proseslərin baş verdiyi bir dövrdə fəaliyyət göstərir. Bunun özü özlüyündə bir qürurverici amildir.*

*Günü gündən püxtələşir, formalaşır, məzmunca zənginləşir və rəngarəng olur, ədəbi jurnallar sırasında öz yerini tutmaq istiqamətində mətinliklə irəliləyir. Xəzansevərləri ətrafında sıx-sıx birləşdirir, onları daha da yaxşı yazmağa həvəsləndirir, ədəbi incilər yaratmağa fərəhləndirir. Odur ki, deyirik: "İKİ YAŞIN MÜBARƏK, GÖZÜ SEVİNC YAŞLI "XƏZAN"!"*

*Bir də ON ÜÇ RƏQƏMİNİN UĞURUNA İNANIN, ON ÜÇ RƏQƏMİNİ SEVİN!*

*Axı onun da sevgiyə ehtiyacı var!*

*Böyük hörmətlə:*
*Əli bəy Azəri,*
*Baş redaktor* -





# MUĞAMIN SÖNMƏYƏN ULDUZU

*(Arif Babayevin 80 illik yubileyi münasibətilə)*



Ata haqqında yazmaq istəyənlərin, yəqin ki, hər birinin ürəyindən keçib bu misralar:

*Hər bir övlada şərəf, şöhrət ilə şan atadır,*
*Başa tac, qəlbə fərəh, təxtə Süleyman atadır.*

Bircə beytlə mükəmməl obrazı yaradılmış ATA!

Şeirdəki dərin mənada atanın həyat qayəsi, ailədəki səmimiyyəti və cəmiyyətdəki mövqeyi ilə bir səslənir. Söhbət Azərbaycanın Xalq artisti, görkəmli muğam ustası Arif Babayevdən gedir. Qəribədir, mən atamı başqa bir sənət sahibi kimi təsəvvür edə bilmirəm. Gözümü açandan görmüşəm ki, övladlarına yüksək əxlaqi keyfiyyətlər aşılayır. Atamın pedaqoji fəaliyyəti, istər xanəndəliyi, istər müəllimliyi onun həyatının mənasıdır. Mənəvi zənginlik, əxlaq saflığı, kamil muğam ustası olması onu çoxlarından fərqləndirir. Atamın 80 illik ömür yoluna nəzər salıb iftixarla deyirəm:

*Pozular qaydalar, dağılar nizam,*
*Verməsən hər kəsə öz qiymətini.*
*Gövhər də dağılar, üzülər tamam,*
*Sərrafdan almasa öz qiymətini.*

Bəxtiyar Vahabzadənin bu misraları atamın muğam dünyasının şah damarı, döyünən ürəyidir.

Atamın 80 illik ömür yoluna zirvədən



baxanda muğamı daha da mənalandırmış, dərinləşdirmiş, uzunömürlü etmiş bir insanı görürəm. Əsl sənətin gücü, qüdrəti onun dərinliyi ilə ölçülür. Xoşbəxtlikdən atam muğam aləminə gəldiyi gündən ad-san qazanmış, muğama şöhrət gətirmişdir. Bu gözəl sənət sonda onun professor kimi fəxri elmi ada layiq görülməsinə gətirib çıxarıb.

Arif Babayevin muğam dünyası gül çələngini xatırladır. Elə bir çələng ki, orda hər gülün, hər çiçəyin öz ətri, öz nəşəsi var. Atamda Şərq müdrikliyinə məxsus alicənablıq, özünü dərk etmək qabiliyyəti çox güclüdür. Bu qabiliyyət onun Azərbaycan səhnəsində yaratdığı Məcnun ovrazında özünü bir daha göstərib. Atam təkcə Məcnunu ilə özünü əbədiləşdirib. İllər ötəcək, Arif Babayev təkcə övladlarının ürəyində, yaddaşında deyil, bütün xalqın yaddaşında yaşayacaqdır. Atam sağlığında sənətdə uzunömürlülük qazanmış bir insandır. Bir övlad kimi üzümü atamın gələcək heykəlini yonmaq istəyən heykəltaraşa tutub deyirəm:

***Gəl, ey heykəltaraş, bu mərmər, bu gil,***
***Düşün müəllimi, sonra alış, yan.***
***Onun heykəlini mərmərdən deyil,***
***Yarat özü kimi nurdan, işıqdan.***

Əziz ATA! Bu yaş insanın müdriklik çağıdır, ucalıq zirvəsidir, cavanlıqla qocalıq arasında bir ünsiyyət, haqq-hesab körpüsüdür. İnsan bu körpüdə dayanıb yaşadığı illər qarşısında hesabat verir. Siz milyonların qəlbində əbədi sevgi odu yandırmısınız. Bu sevgi odu kənddən kəndə, şəhərdən şəhərə gəzərək Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəkdir.

Bəli, Arif Babayev tanınmış, sözünü demiş xanəndədir. Təltifsiz şöhrət qazanıb.

**Əziz ATA!**

Sizi bu gözəl yubiley münasibətilə ürəkdən təbrik edir, can sağlığı və uğurlar arzulayıram.

***Hörmətlə: qızınız Lalə Əbilova***
***Pedaqogika üzrə fəlsəfə elmləri doktoru,***
***Bakı Humanitar Kollecin müəllimi***